**DİŞLƏRİN AĞARDILMASI HAQQINDA MƏLUMAT VƏ RAZILIQ FORMASI**

**1. Ümumi məlumat**

Diş ağartma proseduru dişlərinizin rəngini ağartmaq üçün nəzərdə tutulmuşdur. Əksər hallarda, əhəmiyyətli ağarmaya nail olmaq mümkündür, lakin nəticələrə dair zəmanət verilə bilməz. Lazımi qaydada icra olunarsa, ağardıcı dişlərinizi və diş ətinizi zədələməz. Buna baxmayaraq, digər müalicələr kimi, bu prosedurun da qarşısıalınmaz risk və məhdudiyyətləri mövcuddur. Bəzən, sizi bu prosedurdan çəkindirmək üçün kifayət qədər ciddi səbəblər ola bilər, lakin müalicə olunmağa qərar versəniz, dişlərin ağardılması mümkün ola bilər.

**2. Diş ağartma proseduruna müraciət edən şəxslər**

Aşağıdakı hallar nəzərə alınmalıdır:

- Tünd sarı və ya sarı-qəhvəyi rəngli dişlər boz və ya mavi-boz rəngli dişlərdən daha yaxşı ağarır.
- Bir neçə rəng çaları olan dişlər, xüsusilə də tetraskilin səbəbindən bu cür rəng almış dişlər o qədər də yaxşı ağarmır.
- Paradantoz xəstəliyi olan şəxslər bu prosedurdan istifadə etmək üçün heç də yaxşı namizəd hesab olunmur.
- Əgər hamiləsinizsə, ağartma proseduruna başlamazdan öncə həkiminizdən icazə alın.
- Dişləri olduqca ağ olan şəxslər bu prosedurdan sonra əhəmiyyətli dəyişiklik müşahidə edə bilməzlər.
- Çoxlu plombu, boşluqları, qırıntıları və s. olan dişlər vinir, keramik qapaqlar və ya estetik dolqu ilə emal edilə bilər. Hal-hazırda dişlərinizdə olan plomb, farfor diş tacı və ya vinirin ağardılması mümkün deyil.

**3. Diş ağartma prosedurunun növləri**

**Klinik şəraitdə ağartma** – Bu proses dişlərinizin ağardıcı gelə olan reaksiyasından asılı olaraq, bir və ya bir neçə dəfəyə həyata keçirilə bilər. Hər prosedur təqribən 1-2 saat çəkir (1/2-1 saat hazırlıq, 1 saat isə müalicə).

Klinik şəraitdə aparılan ağartmanın əsas üstünlüyü ondan ibarətdir ki, hər bir iş bizim tərəfimizdən görülür və siz evdə ağartmaya çox vaxt sərf etmirsiniz. Mənfi tərəflərinə isə hər hansı stomatoloji müalicə ilə bağlı normal narahatçılıqlar daxildir: məs.: prosedur boyunca ağızı açıq saxlamaq və ev şəraitində edilən ağartma ilə müqayisədə daha çox məsrəf etmə ehtimalı.

**Ev şəraitində ağartma-** İstənilən zaman və istənilən yerdə icra oluna bilən bu proses zamanı optimal nəticə əldə etmək üçün zərif ağardıcı vasitə ilə doldurulmuş sifarişli ağardıcı kappa (nazik, şəffaf bənd kimi görünür ) taxmaq lazımdır. Gel ilə doldurulmuş kappanı ağardıcı vasitənin gücündən asılı olaraq gün ərzində 45 dəqiqə və ya gecəyə qədər taxmalısınız. Müalicəni təqribən bir-iki həftə ərzində davam etdirməlisiniz. Ev şəraitində ağartmanın əsas üstünlükləri, müalicənin daha az məsrəf tələb etməsi və sizin üçün əlverişli hesab olunan zamanda aparılmasından ibarətdir. Prosesin ev şəraitində aparılmasının mənfi tərəfi isə odur ki, müalicənin uğurla nəticələnməsi ağardıcı kappanın təyin olunmuş müddət ərzində müntəzəm olaraq lazımi qaydada taxılmasından asılıdır.

**4. Sizin öhdəlikləriniz**

- **Ağardıcı kappanın taxılması** – Əgər siz ev şəraitində ağartma üsulunu seçsəniz, aparılan müalicə, yalnız həmin ağardıcını təyin olunmuş müddət ərzində bir-üç həftə boyunca istifadə etdiyiniz təqdirdə uğurlu ola bilər.
- **Fəsadları** – Ciddi narahatlıq və ya digər problemlər müşahidə etdikdə, ağardıcı vasitənin istifadəsini dayandırın və dərhal bizimlə əlaqə saxlayın. Əksər həssaslıqlar (narahatlıqlar) adətən müvəqqəti olur və bir və ya bir neçə gün sonra keçir.

**5. Potensial problemlər**

- **Dişlərin həssaslığı –** Ağartmadan sonrakı ilk 24 saat ərzində bəzi xəstələr dişlərində müvəqqəti həssaslıq hiss edirlər. Əgər dişləriniz normal halda həssas deyilsə, prosedur sonrası həssaslıq adətən zəif olmalıdır. Ağardıcının gücündən asılı olaraq, bu həssaslıq 1-2 gün sonra azalır. Ev şəraitində aparılan ağartma zamanı həssaslığı aradan qaldırmaq üçün, ağardıcıdan istifadə etdiyiniz dəqiqə və ya saatların sayını azaltmalı və ya istifadəni ümumiyyətlə dayandırmalısınız.
  Lakin, əgər sizin öz dişləriniz də həssasdırsa, ağartma dişlərinizin uzun müddət daha da həssas qalmasına səbəb ola bilər. Məhz bu səbəbdən siz, həssaslıq problemini aradan qaldırana qədər, ağartma prosesini təxirə sala bilərsiniz.

  Dişləriniz ağartmadan sonra həssaslaşarsa, Tylenol və ya Advil kimi zəif ağrıkəsicilər həssaslıq dərəcəsi normallaşana qədər sizin bir qədər rahatlanmanıza kömək edəcək.

- **Diş ətinin qıcıqlanması –**az miqdarda məhlulun diş ətinə sızması nəticəsində baş verir. Diş ətində yanma hissi də müşahidə oluna bilər. Bu hiss bir neçə saat və ya bir neçə gün arası özbaşına keçməlidir. Dodaqlarda da yanma və şişmə müşahidə oluna bilər. Ev şəraitində ağartma zamanı, qıcıqlanma kappaların həddindən çox doldurulması nəticəsində məhlulun diş əti toxumalarına sızması səbəbindən baş verir.

Ağartma proseduruna başlayan zaman, kappalardan olduqca çox istifadə etdikdə də qıcıqlanma yarana bilər. Bu səbəbdən, gelin miqdarını və istifadə etdiyiniz saatların sayını azaltmaq hətta, ağardıcı vasitənin istifadəsini ümumiyyətlə dayandırmaq zəruri ola bilər.

- **Plomblara təsiri –** Rəngli plomblar olan dişlər ağara bilməz. Əgər plomb dişinizin hazırkı rənginə uyğundursa, ağartmadan sonra təbii dişləriniz ağaracaq, plomblar isə eyni vəziyyətdə qalaraq kölgə effekti verəcək. Bu səbəbdən, plombların yeni diş rənginə uyğun olan başqa plombla əvəz olunmasına zəruriyyət yarana bilər.

## 6. Müalicənin başa çatması

- **Ağarma səviyyəsi –** Dişlərinizin nə dərəcədə ağaracağını proqnozlaşdıra biləcək heç bir vasitə mövcud deyil. Ağardıcının gücündən asılı olaraq, adətən bir seans dişlərinizin ağarması üçün kifayətdir. Bəzi xəstələr əlavə seansın aparılmasını tələb edirlər. Ev şəraitində bu proses, iki-dörd həftə və ya daha artıq və təkrarlanan prosedur tələb edə bilər.

- **Təkrarlanma** – Ağartma proseduru başa çatdıqdan sonra, ərzaq və içkinin tərkibindəki piqmentlər dişlərinizin yenidən ləkələnməsinə səbəb olacaq. Gündəlik olaraq, apteklərdə satılan ağardıcı diş məcunlarından istifadə edə bilərsiniz.

Verilən məlumatları oxudum və ağartma proseduru mənə tam aydındır. **Dr.Smiles Dental Boutique**-in işçi heyəti bu proseduru mənə izah etdi və suallarımı (varsa) cavablandırdı. Müalicəyə razılıq verirəm.

Xəstənin imzası____________________________ Tarix:______________________

Şahid______________________________________________________________________________